# 4, 5, 6 dekabr 2023-cü il tarixlərində keçirilmiş SCOPUS elmmetrik bazasından səmərəli istifadənin təşkili ilə bağlı təlimin hesabatı

2023-cü il dekabr ayının 4, 5, 6-sı tarixlərində SCOPUS elmmetrik bazasından səmərəli istifadənin təşkili ilə bağlı 3 günlük təlim keçirilmişdir.



https://www.facebook.com/share/p/K1Pdp1hwEjgSJjAA/?mibextid=oFDknk

Təlimdə aşağıdakı mövzular üzrə məlumatlılığın artırılmasına çalışılmışdır.

- Scopus bazasında əsər müəlliflərinin axtarışı və onların profilləri;
- Müəllifin impakt göstəricilərinə nəzər yetirmək;
- Müəllifin yeni nəşrləri və onlara istinadlar barədə məlumatların alınması üçün xəbərdarlıq siqnalının quraşdırılması;
- Müəllif profilinin Scopus bazasında işləmə mexanizmi;
- Müəllif profilində redaktə işinin aparılması;



- Profildə "Orcid", "NIH My Bibliography" və digər platformalarla əlaqə yaradılması;
- Mövzular üzrə müəlliflərin axtarılması;
- Scopus-da istinad icmallarının yaradılması;
- Elmi əsərlərin metrik ölçülərinə baxılması;
- Müəllifin elmi təsirinin əsas göstəriciləri;
- Scopus-da mənbələrin ölçülərinə baxmaq və onlarla işləmək;
- Elmi jurnalın metriklərinin icmalı;
- Scopus-da CiteScore Metrik göstəriciləri;
- Scopus-da mənbələrin müqayisəsinin aparılması
- Əsas axtarışların aparılması;
- Axtarışların saxlanması və xəbərdarlıq siqnalının quraşdırılması;
- Axtarışların genişləndirilməsi yolları;
- "Advanced" axtarışdan istifadə imkanları;
- Axtarış nəticələrinin il, mənbə, müəllif, müəssisə, ölkə və s. kateqoriyalara görə qrafiklərlə təhlili;
- Əldə olunmuş tədqiqat əsərlərinin yüklənmə yolları və istifadə formaları.



Təlimdə 43 kafedradan əməkdaşlar qatılmışdır. Təlim 3 gün ərzində davam etmişdir. Təlimdə gündəlik iştirak etmə ilə bağlı qeydiyyat aparılmışdır. Təlimdə iştirak etmiş 94 professor-müəllim heyətindən 73-ü aktiv iştirakına görə sertifikatla təltif olunmuşdurlar.

Yuxarıda göstərilən istiqamətlərlə yanaşı birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqların genişləndirilməsinin təmin edilməsi, tədqiqatçıların beynəlxalq qrant layihələrində, mübadilə proqramlarında iştirakı istiqamətində universitet daxilində təbliğat aparılmışdır. Bundan əlavə, Web of Science və Scopus elmi platformalarına daxil olan yüksək kvartilli nəşrlərdə çap edilən məqalələrin sayının artırması istiqamətində təlimlərin keçirilməsi və universitetin müəllim və tədqiqatçılarının beynəlxalq elmi platformalarda (Orcid, Web of Science , Scopus, ResearchGate, Google Scholar, PubMed) müvafiq qeydiyyatı məqsədilə təlimlərin keçirilməsinə və akademik profillərinin yaradılmasına dəstək verilmişdir.